## Vergilər Nazirliyinin kollektivi  ulu öndərin məzarını ziyarət etmişdir

Ölkəmizin iqtisadi inkişafından, beynəlxalq nüfuzunun durmadan artmasından, insanlarımızın həyat şəraitinin və rifah halının yüksəlişindən söz düşəndə, ilk növbədə, gözlərimiz önünə bu proseslərin əsasını qoymuş ümummilli liderimiz Heydər Əliyev gəlir, bütün həyatını xalqımızın rifahının yüksəldilməsinə, dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə həsr etmiş bu dahi azərbaycanlı böyük məhəbbətlə xatırlanır.

Hər il oldugu kimi, bu il də dekabrın 12-də Vergilər Nazirliyinin rəhbərliyi başda olmaqla, nazirliyin şəxsi heyəti Fəxri xiyabana gələrək bugünkü müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin ölməz xatirəsini ehtiramla yad etmiş, məzarı önünə gül dəstələri qoymuşdur.